# Birlikdə daha güclü olarıq

Qəbələ şəhərində Türkdilli Dövlətlərin Ağsaqqallar Şurasının 9-cu Zirvə toplantısı keçirilib.

Toplantı iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsi önünə tər-güllər düzmüş və müasir Azərbaycan dövlətinin qurucusuna olan dərin ehtiramlarını ifadə ediblər. Sonra "Qafqaz Riverside" hotelin konfrans zalında təşkil olunan tədbirdə Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri, millət vəkili Fəttah Heydərov zirvə toplantısına qatılan Türkiyə, Qazaxıstan və Qırğızıstan Ağsaqqallar Şuralarının sədrlərini və Türk Parlament Assambleyasının rəsmilərini salamlayaraq bildirib ki, Türkdilli ölkələrin əməkdaşlığı istiqamətində atılan addımlar son illərdə daha intensiv xarakter almaqda, bu səpkidə müxtəlif təşəbbüslər reallaşmaqdadır. Artıq nəticəsini verən bu təşəbbüslər türkdilli dövlətlərin müxtəlif sahələr üzrə əməkdaşlığının yeni bir mərhələsinin başlaması ilə də xarakterizə olunur. Bu səpkidə görülən işlərin, həyata keçirilən tədbirlərin nəticələri və perspektivdə atılacaq addımların nədən ibarət olacağı türk dövlətlərinin birgə fəaliyyətinin koordi-



nasiya olunmasında yaratdıqları müxtəlif təşkilatlar səviyyəsində də daim əsas müzakirə predmetləri sırasında yer alır.

Zirvə toplantısında iştirak edən digər ölkələrin nümayəndələri Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının üzvləri arasında iqtisadi və mədəni-humanitar sahələrdə əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsinin vacib olduğunu bildiriblər.

Zirvə toplantısında Türkiyə Akademiyası tərəfindən orta məktəblərin 8-ci sinif şagirdləri üçün hazırlanan "Ortaq türk tarixi" dərslik proqramını, Türkiyə Akademiyası tərəfindən hazırlanan Türk Dövlətlərinin inteqrasiya konsepsiyasını, 2015—2020-ci illəri əhatə edən "Türk tarixi" dərsliyinin və "Ortaq coğrafiya" kitabının Türkiyə Akademiyası tərəfindən hazırlanmasına dair müzakirələr aparılıb. Həmçinin 11 sentyabr 2015-ci ildə Qazaxstanda keçiriləcək "İnformasiya və Media İşbirliyi" Türk Toplusu 5-ci zirvə toplantısından əvvəl və sonra informasiya və mediadan sorumlu nazirlərin görüşünün keçirilməsi barədə fikir mübadiləsi aparılıb. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv olan ölkələrin diasporalarının regional mərkəzlərinin ABŞ, Fransa və Almaniyada qurulması, birgə fəaliyyət göstərmələri və bir mərkəzdən idarə olunmaları istiqamətində fikir mübadiləsi aparan ağsaqqallar həmçinin üzv ölkələrdə keçiriləcək prezident və parlament seçkilərində Türk PA-nın missiyası tərəfindən müşahidəçilərin seçkini izləməsi məsələlərini də diqqətdə saxlayıblar. Zirvə Toplantısında həmçinin "Qardaş limanlar" 2-ci toplantısının bu il ərzində Bakıda keçirilməsi eləcə də üzv ölkələr arasında Türk Şurası himayədarlığı altında alternativ enerji və informasiya, kommunikasiya texnologiyaları sahələrində nəzərdə tutulan yeni işbirliyi layihələri haqqında müzakirələr aparılıb.

Zirvə Toplantısının sonunda nəzərdə tutulan tədbirlər çərçivəsində quruma üzv olan ölkələr arasında əməkdaşlığın gələcək inkişafı məsələləri müzakirə olunub. Qeyd edək ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası 2009-cu ildə Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə tərəfindən Avrasiyada sülh və stabilliyə töhfə vermək məqsədilə yaradılıb. Qurumun katibliyi İstanbulda yerləşir.

**Zahir KƏRİMOV.**
**Foto İlkin Vəlizadənindir.**

# Qəbələ daha bir beynəlxalq tədbirə—Olimpiya atıcılıq növləri üzrə Dünya Kubokunun final yarışlarına ev sahibliyi edir

**(Əvvəli 2-ci səhifədə).**






Hazırkı yarışlarla birlikdə artıq Qəbələdə atıcılıq üzrə 4-cü yarışlardır ki, uğurla keçirilir. Bu yarışlar Avropa Oyunlarından sonra ən böyük tədbirdir ki, paytaxtdan kənarda—Qəbələdə baş tutur. Qarşıda isə ölkəmizi çoxlu idman yarışları gözləyir.

Çıxış edənlər eyni zamanda Qəbələdə keçirilən bu böyük və şərəfli yarışlara dəstək olan orqanlara, təşkilatçılara, yarışların nümunəvi təşkilində xüsusi olaraq əməyi olan rayon icra hakimiyyətinin rəhbərliyinə təşəkkürlər etmiş və minnətdarlıq bildirmişlər.

Çıxışlardan sonra Azərbaycanın tanınmış incəsənət ustalarının iştirakı ilə geniş konsert proqramı təşkil edilmişdir. Tünzalə Ağayevanın, Güllü Muradovanın, Fuad Əsədovun, müxtəlif rəqs qruplarının çıxışlarını dinləyicilər alqışlarla qarşılamışlar.

Olimpiya Atıçılıq növləri üzrə Dünya Kuboku yarışlarının açılış mərasimi «Azərbaycan Dövlət Himni»nin və Beynəlxalq Atıcılıq Federasiyası Himninin səsləndirilməsi ilə başa çatmışdır.

* * *

Bu gün 7-ci gündür ki, Olimpiya atıcılıq növləri üzrə Dünya Kuboku üzrə final yarışları davam edir.

Avqustun 8-də dairəvi səngər stend atıcılığı üzrə keçirilən yarışlarda qadın idmançılardan Spada Katyuşa (İtaliya) birinci, Connor Caitlin (ABŞ) ikinci, Hill Amber (Böyük Britaniya) üçüncü yeri tutub. İdmançılara medalları gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov və Beynəlxalq İdman Atıcılıq Federasiyasının baş katibi Frans Şrayber təqdim edib.

Olimpiya və dünya çempionlarının iştirak etdiyi bu yarışda Azərbaycanı Emin Cəfərov, Nurlana Cəfərova, Paşa Əhədpur, Niyaz Ağazadə və başqaları təmsil edib.

Avqustun 9-da kişilər arasında dairəvi səngər stend atıcılığı üzrə keçirilən yarışlarda 108 idmançı mübarizə aparıb. İkiqat olimpiya çempionu Vincent Hankok (ABŞ) birinci, Sebastian Kuntşik (Avstiya) ikinci, Qabriele Rossetti (İtaliya) üçüncü yeri tutub. İlk iki yeri tutan idmançılar gələn il Braziliyada keçiriləcək Yay Olimpiya Oyunlarına lisenziya qazanıblar. İdmançılara medalları gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov və Beynəlxalq İdman Atıcılıq Federasiyasının baş katibi Frans Şrayber təqdim edib.

Olimpiya və dünya çempionlarının iştirak etdiyi bu yarışda Azərbaycanı təmsil edən Emin Cəfərov 28-ci, Niyaz Ağazadə 64-cü, Paşa Əhədpur 88-ci yeri tutub.

**Nadir ATAKİŞİYEV.**
**Fotolar İ. Vəlizadənindir.**